**Kəmalə MUSTAFAYEVA**
Azərbaycan Dövlət Rəssamlıq Akademiyasının doktorantı
Ünvan: Bakı 1029 Heydər Əliyev prospekti 58
Elmi rəhbər: Bayram Hacızadə – sənətşünaslıq üzrə fəlsəfə doktoru,
Əməkdar İncəsənət xadimi, professor
E-mail: kamalamustafazadeh@gmail.com

# AZƏRBAYCAN RƏSSAMLARININ YARADICILIĞINDA QARABAĞ MÖVZULU KARİKATURALAR

***Xülasə:*** *Məqalədə XX əsrin 80-ci illərinin sonlarında ölkədə və respublikada baş verən siyasi hadisələri əks etdirən karikaturalardan bəhs edilir. Ermənistanın və onu dəstəkləyən ölkələrin işğalçı siyasətini tənqid etməyə yönəlmiş karikaturaların mahiyyəti və əhəmiyyəti vurğulanır. Demokratiya, yenidənqurma və Qarabağ problemləri mövzusunda vətənpərvərlik ruhunda yaradılmış çoxsaylı əsərlər təhlil edilmişdir.*
***Açar sözlər:*** *siyasi karikatura, demokratiya, işğal, siyasi hadisələr, yaradıcılıq, rəssam*

Uzun və keşməkeşli yol keçmiş milli karikatura sənətimiz Azərbaycanın müstəqillik dövründə də özünün nadir və mübariz sənət növü olduğunu sübut etmişdir. Bu illər ərzində rəssamlarımız dövrün aktual problemlərinin işıqlandırılması, torpaqlarımızın işğalı, təcavüz, ölkəmizə qarşı olan ədalətsizlik, ikili standartlar, siyasi oyunlar və bu kimi haqsızlıqların geniş oxucu-tamaşaçı kütləsinə çatdırılması istiqamətində öz peşəkar səriştə və bacarığını əsirgəməmiş, azğın düşmənə kəskin satira vasitəsi ilə tutarlı cavab vermişlər. Müstəqil respublikamıza sovet ittifaqından miras qalmış “Qarabağ problemi” və onun ətrafında baş verən hadisələr, çirkin siyasi oyunlar, Azərbaycanı parçalamaq üçün edilən cəhdlər, iqtisadi və sosial çətinliklər rəssamlarımızın yaradıcılığına birbaşa təsir edir, yeni məzmunlu, yeni ruhlu əsərlərin meydana çıxmasına zəmin yaradırdı.

Dövr, mürəkkəb siyasi vəziyyət rəssamlarımızdan faciənin əsl mahiyyətinə nüfuz etmək, onun mayasındakı acı gülüşü aşkarlamaq və yüksək professionallıqla yanaşı, həm də sözün əsl mənasında böyük vətənpərvərlik hissi tələb edirdi. Bütün bu keyfiyyətləri öz yaradıcılığında birləşdirən karikaturaçı rəssamlarımızın əsərlərində gülüşün mahiyyəti artıq dəyişmişdir. Bu gülüş xarakter etibarı ilə ciddi problemlər qaldıran, qaçılmaz həqiqətləri çatdıran, ürək ağrısı ilə işlənmiş acı gülüş idi. Qondarma “Dağlıq Qarabağ Respublikası”-nın elan olunması və buna dünya birliyinin, beynəlxalq təşkilatların loyal münasibəti erməni separatçılarını şirnikləndirmiş, onlara hərbi əməliyyatlara başlayaraq, strateji əhəmiyyətli məntəqələri ələ keçirmələrinə şərait yaratmışdır. Bununla da Azərbaycan respublikası erməni işğalçıları tərəfindən elan edilməmiş ədalətsiz müharibəyə sürüklənmişdir.

Ölkədə və respublikada baş verən bu hadisələrin nə qədər mürəkkəb və ciddi olduğunu hələ də tam anlamayan, şahidi olduqları çirkin siyasi oyunların gələcəkdə nə qədər dəhşətli faciələr törədəcəyini heç ağlına gətirməyən vətəndaşlarımız, eləcə də rəssamlarımız bu problemlərin bir qrup ekstremistin, separatçının və ya bir neçə millətçi erməninin əməli olduğuna inanır, gec-tez sağlam düşüncənin qalib gələcəyini zənn edirdilər. Elə buna görə də rəssamlarımızın o illər işləyib hazırladıqları karikaturalarda sülhə çağırış, problemin danışıqlar masası arxasında həll edilməsi arzusu aydın hiss olunurdu.

Hələ də “xalqlar dostluğunun sarsılmazlığı”na, haqq və ədalətin qələbəsinə, mərkəzin son nəticədə düzgün mövqe tutacağına inanmaq istəyən ziyalılarımız kimi, rəssamlarımız da öz çıxışlarında, yazdıqları müraciətlərində, çəkdikləri plakat və karikaturalarda yüksək mədəniyyət nümayiş etdirir, azğınlaşmış düşməni sülh və danışıq yolu ilə sakitləşdirməyə çalışırdılar. Dövri mətbuat səhifələrində dərc olunmuş A.Quliyevin “Xalqlar dostluğu”, “Dedim verməræm, verməræm, bəyəm talandır?”, “Demokratiya yolunda əngəl”, V.Ternavskinin “Qanun və demokratiya qalib gələcək”, “Qarabağ prospekti”, A.Ələsgərovun “Separatizmə yol yoxdur!”, Y.Əsədovun “Müşayiətçilər”, B.Hacızadənin “Haqqa gəl!..”, “Bağışla, səni oyatdım...”, H.Nəsiroğlunun “Ədalət axtarıram”, “Dağlıq Qarabağ hadisələri və onun ətrafında”, G.Məlikovanın “Həlli uşağa da aydındır” və digər bu kimi karikaturalar rəssamlarımızın bu mövzuda işləyib hazırladıqları ilk rəsmlərdir (şək.1).

***Şəkil 1.***



Separatizmi, işğalı, xalqımıza qarşı olan ədalətsizliyi gündəmə gətirən karikaturaçı rəssamlarımız ən çətin anlarda belə dərin mədəniyyət, yüksək peşəkarlıq göstərərək, öz haqlı tələblərini və narahatlıqlarını kağız üzərinə köçürürdülər. Hələ də sağlam düşüncənin qalib gələcəyinə ümid edən, oxucuya ümid və inam aşılayan, bu problemi sülh və danışıqlar yolu ilə həll etməyə çağıran rəssamlarımızdan V.Tatarinsevin "Tələsmə, gəl dialoqa girək!" karikaturası diqqət çəkir (10, s.8). O illərin real vəziyyətini çox sadə və obrazlı şəkildə təsvir edən müəllif, bu əsərində azərbaycanlının və ermənininin xarakterik cəhətlərini tam şəkildə aça bilmişdir. Karikaturada əli silahlı quldurun öz mənzilində istirahət edən adi vətəndaşın pəncərəsini sındıraraq onun evinə basqın etməsi səhnəsi təsvir olunmuşdur. Torpaqlarımıza tamah salan çağırılmamış erməni "qonaqlar"ına hələ də sülh və qardaşlıq təklif edən azərbaycanlıların simvolik obrazını rəssam halal zəhmətlə dolanan, öz evində dinc və firavan yaşayan insan kimi göstərmişdir. Əsrlər boyu arxadan zərbə vurmağa öyrəşmiş, yaltaq və simasız xalq kimi tanınmış erməniləri isə qonşusunun pəncərəsini sındırıb onun ərazisinə (mənzilinə) təcavüz edən əlisilahlı quldur, qəsbkar kimi təqdim etmişdir. Hər iki qəhrəmanın geyimi, üz cizgiləri, hərəkətləri karikaturada təsvir olunan konkret, real vəziyyətə, onların tutduqları mövqeyə uyğun işlənmişdir. Sözün əsl mənasında o dövrün real siyasi mənzərəsini bütün çılpaqlığı ilə əks etdirməyə çalışan rəssamın bu karikaturasında, hələ də xalqlar dostluğuna inam, qanunun, haqq və ədalətin aliliyinə ümid hiss olunurdu (şək.2).

***Şəkil 2.***




**Vsevolod Ternavski – Azerbaijan (1990)**

Bu haqda professor Bayram Hacızadənin “Kirpi’nin rəssamları” kitabında oxuyuruq: “*Nə qədər acınacaqlı olsa da, etiraf etməliyik ki, o illər ölkədə vəziyyət həqiqətən belə idi. Dinc quruculuq işləri ilə məşğul olan, yaşayıb yaradan, əmək cəbhəsində böyük qələbələr qazanan xalqımız əsassız torpaq iddiaları, təcavüz ilə üzləşmişdi. Əlbəttə, bu torpaqların əsrlər boyu Azərbaycan xalqına məxsus olması, ermənilərin bu ərazilərə sonradan gəlməsi haqqında kifayət qədər tutarlı faktlar, tarixi sənədlər mövcuddur. Lakin təəssüf hissi ilə deməliyik ki, respublikanın öz kürsüsündən qorxan o vaxtkı rəhbərlərinin, erməni lobbisinin təsiri altına düşmüş Moskvanın, beynəlxalq təşkilatların və bəzi “maraqlı” ölkələrin bu hadisələrə birtərəfli, laqeyd, bəzən isə düşmən münasibətləri nəticəsində Azərbaycanın haqq səsi eşidilməmiş, torpaqları işğala məruz qalmışdır*” (5, s.304).

XX əsrin 80-cı illərinin sonu, 90-cı illərin əvvəli azərbaycanlıların öz ata-baba torpaqlarından qovulmasının miqyası daha da genişlənmişdir. Ölüm və zorakılıq halları ilə müşayiət olunan həmin proseslərdə azərbaycanlılar Ermənistan və Qarabağda yaşadıqları torpaqlardan qovulmuşdur. Bu zorakılıq və tarixi ədalətsizlik nəticəsində Ermənistan silahlı qüvvələri tərəfindən Azərbaycan torpaqlarının 20%-i işğal olunmuş, qaçqın və məcburi köçkün ordusu yaranmışdır (11, s.5; 4, s.53). Təsadüfi deyildir ki, həmin dövrdə rəssamlarımızın yaradıcılığının əsas hissəsini öz ata-baba torpaqlarından qovulmuş bu insanların acı taleyini, xalqımızın bu savaşda təklənməsini əks etdirən çoxsaylı karikaturalar, plakatlar, təbliğat xarakterli rəsmlər təşkil edirdi A.Quliyevin “Torpaqlarımızı qaytardılar...”, “Qaçqınlar” operasından”, V.Ternavskinin “Yeni ilin astanasında”, Y.Əsədovun “Evə qayıdaq!”, B.Hacızadənin “İsgəndərin tənəsi”, H.Nəsiroğlunun “Bu nə müsibətdir?..” və digər karikaturalarda mövzunun aktuallığı, problemin mahiyyətinin dərinliyi və faciənin ağır nəticələri gündəmə gətirilmişdir (12, s.7; 1, s.2; 5, s.307) (şək.3). Faciənin əsl səbəblərinin axtarışı labirintində, acı gülüşün meydana çıxarılması və onun geniş auditoriyaya lakonik formada çatdırılması bu əsərlərin əsl mahiyyətini təşkil edir.

***Şəkil 3.***



V.Ternavskinin yüksək peşəkarlıqla işləyib hazırladığı "Yeni ilin astanasında" adlı karikaturasında geniş oxucu kütləsinə xalqımızın üzləşdiyi qaçqınlar problemi, bu problemin nə qədər ağrılı, eləcə də gözlənilməz olduğu çatdırılır. 1989-cu ildə, "Kirpi" satirik jurnalının üz qabığında dərc olunmuş karikaturada, ev-eşiyini itirmiş, zorla ata-baba torpaqlarından qovulmuş azərbaycanlıların ümumiləşdirilmiş obrazı bu fəlakətin ağrı-acısını öz çiyinlərində daşıyan nurani bir qocanın timsalında təqdim edilmişdir (7, s.1). Bu rəsmdə müəllif, qəbul otağında öz həllini gözləyən 1990-cı illərin sosial, ekoloji, səhiyyə və ərzaq problemləri fonunda didərginlər probleminin nə qədər ciddi və ağrılı olduğunu məsul şəxsin qəbul otağına növbədənkənar, tələsik girən qoca kişi obrazı ilə göstərməyə nail olmuşdur.

Xalqın ağır günlərində öz məsuliyyətini anlamayan, təcavüzün genişliyini, faciənin ağırlığını ört-basdır etməyə çalışan Azərbaycan hakimiyyət orqanları təəssüf ki, tam fəaliyyətsizlik göstərirdilər. Mərkəz qarşısında "quyruq bulayan" üzdəniraq "rəhbər"lərin əhalidən hətta ov tüfənglərinin yığılması barədə verdiyi qərar xalqın narazılığına səbəb olur və əlbəttə, təəccüb və təəssüf doğururdu. Silahlandırılmış ermənilərin qarşısında azərbaycanlıları əliboş qoymaq, düşmən qarşısına silahsız çıxartmaq heç cür başa düşülə bilməzdi. Moskvanın bu cür münasibətini, yerli hakimiyyətin isə laqeydliyini öz əsərlərində ifşa edən rəssamlarımız onları acı gülüşlə ayıltmağa, öz xalqına sahib çıxmağa çağırırdılar.

"Kirpi" satirik jurnalının aparıcı rəssamlarından biri olan V.Ternavskinin 1990-cı ildə, jurnalda dərc olunmuş karikaturasında da bölgədə olan real vəziyyət ictimaiyyətin diqqətinə bütün çılpaqlığı ilə çatdırılmışdır. Karikaturada, "Qanunsuz silahların geri alınması haqqında" fərmanla iki hissəyə bölünmüş Azərbaycan və Ermənistan əraziləri göstərilmişdir. Rəsmdən aydın görünür ki, müasir silahlarla dolu olan Ermənistan ərazisindən fərqli olaraq Azərbaycanda heç bir silah-sursat yoxdur. Burada təsvir olunmuş vəziyyətin paradoksallığı ondan ibarətdir ki, həmin fərman silahlarla dolu olan qəsbkar və təcavüzkar Ermənistan tərəfə deyil, əksinə təcavüzə məruz qalmış, silahsız, əhalisindən ov tüfəngləri belə yığılmış Azərbaycana ünvanlanmışdır (8, s.4).

Bu mövzuya həsr olunmuş, daha dəqiq desək ikili standartın ifşasına yönəlmiş A.Quliyevin "Birini barmaqla, birini silahla", "Canfəşanlıq", Q.Vəlicanovun "Deyirəm bomba deyil, qarpızdır, inanmırsınız!", H.Nəsiroğlunun "Ədalət axtarıram", B.Hacızadənin "Silahsız da qarşında duraram" və digər karikaturalarda bu acı, ancaq real vəziyyət geniş oxucu və tamaşaçı kütləsinin diqqətinə çatdırılmışdır. A.Quliyevin "Canfəşanlıq" karikaturasında, adından da göründüyü kimi, Azərbaycan hakimiyyətinin yersiz canfəşanlığı bütün eybəcərliyi ilə göstərilmişdir. "Kirpi" jurnalında, 1990-cı ildə dərc olunmuş, öz orijinallığı və acı gülüşü ilə seçilən bu əsərdə, əhalidən silahları yığmaqla kifayətlənməyən "rəşadətli" polis işçilərimizin hətta heykəllərdən belə silahları müsadirə etməsi təsvir olunmuşdur. Rəssam bu karikaturasında əhalidən silahları yığmaqda xüsusi "fəallıq" nümayiş etdirən "qanun keşikçilərinin" çevikliyini acı təbəssümlə gündəmə gətirmişdir (2, s.183).

XX əsrin 90-cı illərində Azərbaycanın yeni, müstəqil, mübariz siyasi mətbuat rəsm üslubunun formalaşması sağlam və düzgün yaradıcılıq platformasında həyata keçirilirdi. Ölkədə gedən çirkin siyasi oyunlar, vəzifə davası, siyasi sərištəsi olmayan insanların məsul vəzifələrə təyin olunması, Azərbaycanı parçalamağa hazır olan qüvvələr, yeni yaranan partiyalar, qurumlar və silahlı qruplar arasında qarşıdurmalar və bu kimi mənfi halların ifşasına yönəlmiş karikaturaların müəllifləri üçün bu platforma aydın və müəyyən idi. Belə bir mürəkkəb vəziyyətdə təklənmiş xalqımız, vətənpərvər insanlarımız, ziyalılarımız və rəssam-jurnalistlərimiz birləşərək ümumi düşmənə qarşı çıxış edir, mövcud həqiqətləri dünya ictimaiyyətinə çatdırmağa cəhdlər göstərirdilər.

Xalqının taleyinə biganə qalan, dövlət məmurunun cinayətkar hərəkətlərini ifşa edən "Xalqın milyonlarını neyləmisən?", siyasi oyunbazların məkrli və çirkin əməllərinin tənqidinə yönəlmiş "İndi it yiyəsini tanımır", "Markaryana heç vaxt inanma!", "Bilyard stolu arxasında", simasız, yaltaq, vəzifə xatirinə dondan-dona girən insanları ifşa edən "Abidə önündə...", boşboğazlıq etmək üçün tribuna, auditoriya axtaran siyasi ambisiyalı "natiq"ləri, tez-tez mövqeyini dəyişən "siyasətçiləri", "millət vəkillərinin" simasızlığını hədəfə alan "Tribuna xəstələri", "Natiq"lər və digər bu kimi karikaturalar o illərin mürəkkəb siyasi vəziyyətini əks etdirirdi. Bu əsərlərin mövzuları real vəziyyətlə, gündəlik həyatda rastlaşdığımız hadisələrlə üst-üstə düşdüyündən tamaşaçılar tərəfindən tam şəkildə, hər hansı bir şərhsiz qəbul olunurdu.

"Həqiqi satiranın yaranması möhkəm ideya prinsipləri olmadan mümkün deyil" (13, s.446). Həqiqətən də belədir. Azərbaycan xalqının tarixinin ağrılı səhifələrini işıqlandıraraq, işğalı, zorakılığı, təcavüzü, əli xalqın qanına batmış cinayətkarların hələ də müttəhimlər kürsüsündə əyləşməməsi faktını acı həqiqət kimi geniş kütlələrə bütün ağırlığı ilə çatdırmaq rəssamlarımızın yaradıcılığının ana xəttini, qayəsini, onların ideya prinsiplərini təşkil edirdi. A.Quliyevin "Bağlı qalmış cinayət işi", "20 yanvar", "El gücü - sel gücü", V.Tatarinsevin "Suveren Azərbaycan", "Qanlı yanvar", B.Yəhyayevin "Xalqın gücü", B.Hacızadənin "Müstəqil Azərbaycan", "Bu məzəli oğlan kimdir?", "Korlar şəhərində", "Bayquşların söhbəti", H.Nəsiroğlunun "Xalqın yumruğuna davam gətirməzlər", "Qızıl meydanda rəqs", Y.Əsədovun "İşğalçıya alqışlar", " Kələfin ucu" adlı karikaturaları öz siyasi kəsərinə və ifşaedici məzmununa görə seçilirdi. Plakat xarakterli bu rəsmlərdə xalqın azadlıq uğrunda, torpaqlarımızın bütövlüyü naminə apardığı mübarizə əks olunmuşdur. Bütün qadağalara, təzyiqlərə baxmayaraq, yaradılmış maneələri, mövcud sərhədləri aşan xalq öz azadlığı uğrunda mübarizəyə qalxmışdı. Bu həqiqətən də el gücü idi.

1991-ci il, fevralın 5-də Azərbaycan Ali Sovetinin sessiyasında demokratik qüvvələrin tələbi ilə bir sıra tarixi qərarlar qəbul olunmuşdur. Dövlətin adı "Azərbaycan Sovet Sosialist Respublikası"ndan "Azərbaycan Respublikası"na

dəyişdirilmiş, Azərbaycan Xalq Cümhuriyyətinin bayrağı dövlət bayrağı kimi təsdiq olunmuşdur (5, s.353; 14).

Ali Sovetin binası üzərində üçrəngli bayrağımızın ucaldılması kimi tarixi hadisəyə həsr edilmiş “Bir kərə yüksələn bayraq bir daha enməz” karikaturasında o illər respublikada baş verən, xalqımız üçün taleyüklü bu hadisə öz dolğun əksini tapmışdır (2, s.182; 9, s.1). A.Quliyevin müəllifi olduğu, vətənpərvərlik ruhunda işlənmiş, ölkəmizin müstəqillik qazanmasına və dövlət bayrağımızın bir daha yüksəlməsinə həsr olunmuş xoşməramlı rəsm tamaşaçıda ruh yüksəkliyi yaratmaqla yanaşı, bədii estetik səviyyəsi və professional ifa tərzinə görə də seçilir.

Bu dövrdə yaranan bir çox karikaturalarda məzmunun ideyası milli maraqlar baxımından işlənilir, süjetin seçilməsində daha çox mətnaltı mənanın ifadəliliyinə üstünlük verilir, qrotesk kəskinləşir, istehzanın mahiyyəti dərinləşirdi. Belə karikaturaların bir çoxunda əsas ideya süjet xəttində göstərilən vizual təsvir yox, onun əsasında çıxarılan məntiqi nəticədir. Bu isə öz növbəsində rəssamlar qarşısında tamaşaçıya bir vizual təsvirlə iki və daha artıq mətnaltı məna çatdırmağa nail olmaq, orijinal yanaşma vasitələrindən istifadə etməklə daha çox informasiya ötürmək kimi ciddi vəzifələr qoyurdu. Həmin vəzifələrin öhdəsindən layiqincə gələn rəssamlarımız təsvir-ifadə vasitələrindən məharətlə istifadə edərək, milli ideyanın təsdiqinə, torpaqlarımızın azadlığına, cəmiyyətin saflığına yönəlmiş çoxsaylı əsərlər yaratmışlar.

1993-cü ildə, Heydər Əliyevin xalqın tələbi ilə yenidən hakimiyyətə qayıdışını ölkənin taleyində nə qədər mühüm və əhəmiyyətli hadisə olduğunu dərk edən cəmiyyətimizin əksər nümayəndələri kimi rəssamlarımız da bu hadisəni öz əsərlərində işiqlandırmışlar. Güclü siyasətçi, təcrübəli dövlət rəhbəri Heydər Əliyev ona qarşı yönəlmiş təhlükələrə və təzyiqlərə baxmayaraq, həqiqətən də ömrünün qalan hissəsini xalqına həsr etməyə hazır olan – Böyük Şəxsiyyət və Azərbaycanın xilaskarı idi. A.Quliyevin “Alınmaz qala”, B.Hacızadənin “Mövqeləri bildirmək vaxtı çatanda”, “Çörəyi dizinin üstündə olanlar”, H.Nəsiroğlunun “Qüdrətli Azərbaycan uğrunda!”, “Neft kontraktı imzalandı”, “Kölgəsini qılınclayanlar”, T.Məmmədovun “Güclü oyunçu” və digər əsərlər rəssamlarımızın xalqın xilaskarına, Ulu Öndər Heydər Əliyevə sonsuz sevgisinin, inamının və rəğbətinin təzahürü idi.

Xalqımızın faciəsinə göz yuman, bəzi hallarda isə təcavüzkarı açıq-aşkar müdafiə edən, dünyaya demokratiya ixrac edən, insan hüquqlarından dəm vuran böyük dövlətlərin, beynəlxalq təşkilatların ədalətsiz mövqeyi ilə mübarizə aparan Heydər Əliyev öz gücünə inanır, öz xalqına arxalanırdı. Bu mübarizədə bütün ziyalılarımız kimi, karikaturaçılarımız da Heydər Əliyevin ətrafında birləşərək, bu haqsızlığa, ədalətsizliyə etiraz səsini ucaltmış, öz əsərlərində təcavüzkarın əsl simasını açaraq, işğalçıya dəstək göstərən dövlətlərin apardıqları ikiüzlü siyasəti tənqid etmişlər. Nə zamansa ədalətin zəfər çalacağına, torpaqlarımızın gec-tez işğaldan azad olacağına, Azərbaycanın bu müharibədən qalib çıxacağına, üçrəngli

bayrağımızın Şuşada, Xankəndində dalğalanacağına bütün varlığı ilə əmin olan rəssamlarımız öz əsərlərində bu qələbə gününü əks etdirirdilər.

Torpaqlarımızı işğal edən düşmənin tezliklə öz layiqli cəzasını alacağını, bu əfi ilanın başının əziləcəyini göstərən, təcavüzkarların işğal olunmuş ərazilərdən qovulacağını və torpaqlarımızın azad olacağını, Dövlət bayrağımızın Şuşada ucalacağını əks etdirən təbliğat xarakterli bu əsərlər vətəndaşlarımızın qələbəyə inamını, Azərbaycanın haqq işinə əminliyini artırır, onlarda ruh yüksəkliyi yaradırdı. Tanınmış karikatura ustaları V.Ternavskinin “Ekstremizmə ölüm!”, “Torpaqlarımızdan rədd ol!”, H.Nəsiroğlunun “Arzun ürəyində qalacaq”, V.Tatarinsevin “Burnun ovulacaq”, B.Hacızadənin “Haqq-ədalət zəfər çalacaq”, “Hay ilə gələn, vay ilə gedər” və digər bu kimi yüksək vətənpərvərlik ruhunda işlənmiş əsərlərində informasiya yükü şərti ifadə vasitələri ilə və yüksək ustalıqla təqdim edilmişdir (şək. 4)

***Şəkil 4.***



Tanınmış karikaturaçı rəssam B.Hacızadənin bu mövzuda işləyib hazırladığı “Torpaqlarımızı azad edək!” adlı əsərində düşmən işğalından təmizlənmiş, yenidən tikilmiş və abadlaşdırılmış Qarabağımız təsvir edilmişdir. Xalqa, vətənə sevgi ruhunda işlənmiş bu əsərdə Şuşa və Əsgəran qalaları, Ağdam məscidi, yeni ucalmış binalar, dinc quruculuq işləri ilə məşğul olan zəhmətkeş insanlarımız, Azərbaycanın dilbər guşəsi olan Qarabağa istirahətə gəlmiş gənc ailə, əllərində bayraq tutmuş xoşbəxt uşaqlarımız və əlbəttə, yüksəkdə dalğalanan üçrəngli bayrağımızı görmək olar. İşğal olunmuş ata-baba torpağını azad, xalqını firavan görmək arzusu ilə yaşayıb yaradan müəllif, şəkilaltı mətndə milyonlarla azərbaycanlının arzu və istəyini əks etdirmişdir: – “Torpaqlarımızı azad edək, əvvəlkindən də gözəl kəndlər, qəsəbələr və şəhərlər salaq!” (2, s.232; 10, s.21) (şək.5).

*Şəkil 5.*




**Bayram Hacızadə "Haqq və ədalət qalib gələcək" (1991)**

Hər bir vətənpərvər azərbaycanlının qəlbindən gələn, hər birimizin ümdə arzusunu ifadə edən bu sözlər, əlbəttə, gec-tez gerçəkləşməli idi. Biz öz torpaqlarımızı düşmən tapdağından təmizləyib, yeni-yeni kəndlər və qəsəbələr tikəcəyimizə, şəhərlər salıb, yollar çəkəcəyimizə, Azərbaycanın dilbər guşəsi olan Qarabağı çiçəkli diyara çevirəcəyimizə inanırdıq. Tanınmış karikatura ustası B.Hacızadənin hələ 1992-ci ildə dövri mətbuatda dərc olunmuş "Haqq ədalət zəfər çalacaq", "İt hürər, karvan keçər", "Oğru elə bağırdı ki, doğrunun bağrı yarıldı", "Arzularımız", "Torpaqlarımıza qayıdacayıq" və digər bu kimi əsərlərin hər birində torpaqlarımızın düşməndən azad edilməsinə, suverenliyimizin, sərhədlərimizin bərpa olunmasına inam, qələbə gününün yaxında olduğuna əminlik tam aydın hiss olunurdu (10, s.21, 1, s.56, 15, 3, s.43).

Uzun illər gözlədiyimiz böyük qələbənin şad xəbərini xalqımız 2020-ci ilin noyabr ayının 8-də prezidentimiz, Ali Baş Komandan İlham Əliyev cənablarının

dilindən eşitdi: "Əziz Şuşa, sən azadsan!, Əziz Şuşa, biz qayıtmışıq!, Əziz Şuşa, biz səni dirçəldəcəyik!, Şuşa bizimdir!, Qarabağ bizimdir!, Qarabağ Azərbaycandır!" (16).

Güclü və böyük dövlətlərin, Minsk qrupunun və digər Beynəlxalq təşkilatların 30 il ərzində edə bilmədiklərini Azərbaycan Ordusu Müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə 44 gün ərzində gercəkləşdirdi. Ulu Öndər Heydər Əliyevin təməlini qoyduğu, Ali Baş Komandan İlham Əliyevin həyata keçirtdiyi – Güclü dövlət, qüvvətli ordu, milli birlik siyasətinin nəticəsi – bizim qələbəmiz, torpaqlarımızın düşmən tapdağından azad olunması, bayrağımızın Şuşada dalğalanması oldu. Əlbəttə, bu qələbə Azərbaycan tarixində də yeni inkişaf mərhələsi idi. Güclü dövlət, xalq və iqtidar birliyi, qüdrətli ordu, inkişaf edən iqtisadiyyat, çiçəklənən ölkəmiz və bu inkişafımıza mane olmağa çalışan xarici və daxili qüvvələr rəssamlarımızın yeni yaranan əsərlərinin əsas mövzusunu təşkil edir.

Araşdırdığımız dövrdə karikaturaçı rəssamlarımız ölkədə və beynəlxalq aləmdə baş verən hadisələrin işıqlandırılması, torpaqlarımızın işğalı, təcavüzkar qüvvələrin üzə çıxarılaraq ifşa edilməsi, xalqımız üçün taleyüklü məsələlərin, cəmiyyətdə mövcud olan əyintilərin və nöqsanların gündəmə gətirilməsi, mənfi tiplərin ifşa olunması sahəsində əzmlə çalışmış, öz məhsuldar fəaliyyətləri ilə karikatura sahəsində yeni-yeni uğurlar qazanmışlar.

Azərbaycan karikaturasının müasir dövrdə də davam edən inkişaf mərhələsi dünya karikatura ənənələrinin və bədii nailiyyətlərinin Azərbaycan karikaturasına təsiri ilə birbaşa bağlıdır. Karikaturaçı rəssamlarımızın qarşısında duran əsas vəzifələrdən biri, bu zəngin irsin təkmilləşdirilməsi və dünya karikatura sənətinin inkişaf istiqamətləri ilə uzlaşdırılmasıdır. Bu istiqamətdə çalışan rəssamlarımız müasir dövrlə səsləşən, yeni məzmun və forma biçimi ilə seçilən, siyasi kəsəri və aktuallığı ilə yadda qalan çoxlu sayda əsərlər yaratmışlar. Rəssamlarımızın, özündə mövcud quruluşun, cəmiyyətin, vətəndaşın siyasi baxışını, mövqeyini əks etdirən yeni məzmunlu və aktual mövzulu əsərləri öz dövrünün aynası kimi mühüm əhəmiyyət kəsb edir.

**ƏDƏBİYYAT:**


1. "Gənclik" jurnalı. – B.: Azərbaycan, 1992, №5-6, 56 s.
2. Hacızadə B. 100 illik karikatura tariximiz. – B.: Azəri-Dizayn, 2006, 240 s.
3. Hacızadə B. Azərbaycan karikaturası dünən və bu gün.–B.: Azəri-Dizayn, 2007, 64 s.
4. Hacızadə B. Dünya karikaturası. – B.: Şərq-Qərb, 2009, 336 s.
5. Hacızadə B. "Kirpi"nin rəssamları, III cild. – B.: Bestpack, 2017, 368 s.
6. "Kirpi" satirik jurnalı. – B.: Azərbaycan, 1991, №6, 8 s.
7. "Kirpi" satirik jurnalı. – B.: Kommunist, 1989, №24, 8 s.
8. "Kirpi" satirik jurnalı. – B.: Kommunist, 1990, №2, 8 s.
9. "Kirpi" satirik jurnalı. – B.: Kommunist, 1990, №3, 8 s.
10. "Kirpi" satirik jurnalı – Xüsusi buraxılış. – B.: "Azərbaycan" nəşriyyatı, 2005, 24 s.
11. Süleymanov E. Xocalı Soyqırımı – 1992. B.: Əbilov, Zeynalov və oğulları, 2006, 584 s.

12. "Şeytan" satira və yumor jurnalı. – B.: CBS, 2001, №1, 16 s.
13. Сидоров А.А. История Русского искусства. Гл. Карикатура и плакат. – Москва: Изд. А.Н. СССР. 1967, 450 с.

**Saytoqrafiya:**

14. Azərbaycanın dövlət rəmzlərinə və atributlarına dair məqalələr. / preslib.az saytı. Sonuncu müraciət tarixi 19.05.2023. URL:https://files.preslib.az/projects/remz/pdf/eres_meqaleler.pdf
15. AZERCARTOON. Official Website of Azerbaijan Cartoonists Union. Sonuncu müraciət tarixi 19.05.2023. URL:http://www.azercartoon.com/no_to_occupation_and_aggression.htm
16. Möhbalıyev Səttar. İlham Əliyevin zəfər salnaməsi. "Azərbaycan" Rəsmi Dövlət qəzeti. Sonuncu müraciət tarixi 19.05.2023. URL:https://azerbaijan-news.az/az/posts/detail/ilham-eliyevin-zefer-salnamesi-1667599550

**Камаля МУСТАФАЕВА**
Докторант Азербайджанской Государственной
Художественной Академии

## КАРИКАТУРЫ АЗЕРБАЙДЖАНСКИХ ХУДОЖНИКОВ НА КАРАБАХСКУЮ ТЕМУ

***Аннотация:*** *В статье рассматриваются карикатуры, отражающие политические события, произошедшие в республике в конце 80-х годов XX века. Особо выделена сущность и важность карикатур, направленных на критику захватнической политики Армении и стран, поддерживающих её. Представлен анализ многочисленных произведений, отражающих темы демократии, перестройки и проблемы Карабаха, созданные в духе патриотизма.*

***Ключевые слова:*** *политическая карикатура, демократия, оккупация, политические события, творчество, художник*

**Kamala MUSTAFAYEVA**
Doctoral student of Azerbaijan State Art Academy

## KARABAKH THEME CARICATURES CREATED BY AZERBAIJAN ARTISTS

***Abstract:*** *The article deals with caricatures that reflect the political events that took place in the republic in the late 80s of the XX century. The essence and importance of cartoons aimed at criticizing the aggressive policy of Armenia and the countries that support it are highlighted. Numerous works published on the topic of democracy, perestroika and the problems of Karabakh, created in the spirit of patriotism, were analyzed.*

***Keywords:*** *political caricature, democracy, occupation, political events, creativity, artist*

**Rəyçilər:** sənətşünaslıq üzrə fəlsəfə doktoru, professor Bayram Hacızadə;
sənətşünaslıq üzrə fəlsəfə doktoru Ziyadxan Əliyev